# ÇİN OLMUŞ YUXUM

İkinci Qarabağ müharibəsinin başlanmasından bir neçə gün öncə qəribə bir yuxu gördüm. Respublikamızın Prezidenti cənab İlham Əliyevlə Dənizkənarı Milli Parkda səmimi söhbət edirdim. Onun çox sadə, səmimi insan olduğuna heyran qalmışdım. Mən cənab İlham Əliyev haqqında yuxuda düşündüklərimin həqiqiliyini II Qarabağ müharibəsi zamanı cəsarətli çıxışlarında, yüksək vətənpərvərlik ruhunda söylədiyi nitqlərində xarici jurnalistlərin verdiyi suallara elmi, siyasi və diplomatik baxımdan düzgün dəqiq cavablarında aydın gördüm. O yuxudan sonra tezliklə düşmən əsarətində qalan ərazimizi Ali Baş Komandanımız cənab İlham Əliyev rəhbərliyi ilə müzəffər Milli Ordumuzun vətənpərvər igid, qorxmaz əsgər və zabitlərinin azad edəcəyinə güclü inam bəsləyirdim.Ümidlərim həqiqətə çevrildiyi üçün gördüyüm yuxu çin oldu. Doğrudan da, bəzən yuxuların baş verəcək həyat həqiqətlərindən xəbər verməsi barədə deyilənlər inandırıcıymış.

Azərbaycanın artıq tarixi hadisə statusunu qazanan 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 10-dək özünün ərazi bütövlüyünün bərpa edilməsi uğrunda Vətən müharibəsi aparması, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüşən silahlı qüvvələrimizin düşmənə sarsıdıcı zərbələr endirməsi və işğalçı Ermənistanı məğlubiyyətə uğratması xalqımızın yaddaşından heç zaman silinməyəcəkdir. Ermənistanın noyabrın 10-da onun üçün kapitulasiya aktı sayılan üçtərəfli Bəyanata imza atmaq məcburiyyətində qalması, bu sənədə əsasən, üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz Respublikamıza təhvil verməsi, 3 on illik keçən müddətdə öz həllini tapmağından işğal olunmuş ərazilərimizlə bağlı xalqda ümidsizlik yaradan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi Azərbaycan xalqının həyatına qızıl hərflərlə yazılan, heç vaxt yaddaşlardan silinməyəcək, əbədi qalacaq çox dəyərli tarixi hadisələr. Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır.Bu bənzərsiz, heyrətləndirici,böyük olayların yaradıcısı, qurucusu, bünövrəsini qoyan Prezident İlham Əliyevin yanvarın 6-da sədrlik etdiyi 2020-ci ilin yekunlarına həsr olunmuş videofarmatda keçirilən müqavilədə söylədikləri "Keçən ilin və nəinki keçən ilin, son ilin əsas yekun"torpaqlarımızın işğaldan azad olunmasıdır" sözləri, eləcə də "Şuşa, sən azadsan. Şuşa, biz gəlmişik. Şuşa, biz səni dirçəldəcəyik!"- deyimləri çağdaş zamanın tələblərinə yetərincə cavab verdiyi üçün insanlar həmin cümlələri sevinclə qarşılayırlar. Prezident İlham Əliyevin qəddar və xain düşmən üzərində qələbəmizi xalqa çatdıran deyimləri qəhrəman, igid döyüşçülərimizin düşməni ağır məğlubiyyətə uğradıb doğma Şuşa şəhərini əsarətdən azad etdiyini bildirən zəfər xəbəri olduğu üçün Azərbaycan tarixinə əbədi yazıldı və heç bir zaman unudulmayacaq, yaddaşlardan silinməyəcəkdir. Ali Baş Komandan İlham Əliyev düşmənin və onun havadarlarının istəklərini həyata keçirməsinə imkan vermədi. Öz çıxışında AXC və Müsavatın hakimiyyətə gəlmək üçün Şuşanı, Laçını və Kəlbəcəri düşmənə xaincəsinə satdıqlarını və onun komandanlığı ilə igid döyüşçülərimizin düşmən ordusuna ciddi, sarsıdıcı zərbələr endirərək böyük itkilərlə doğma yerlərimizdən erməniləri, eləcə də onların havadarlarını qovulduqlarını xalqa çatdırmış, bundan sonra erməni faşistlərinin ərazimizə soxulmağa cəsarət etməyəcəklərini söyləmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyev qürur hissi ilə "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"demişdir.

Qeyrətli, qorxmaz, vətənpərvər Ali Baş Komandanımız, humanist dövlət başçımız, yetkin, bilikli, siyasətçi, talantlı diplomat, ağıllı, mahir sərkərdə İlham Əliyev Vətən Müharibəsinin 44 günü ərzində bir an da döyüşçülərimizdən ayrılmadı, həmişə onların sıralarında addımladı. Döyüşçülərimiz silahlarla, əlbəyaxa, o isə uzun illərdən bəri düzgün yönümdə mətanətlə, bacarıqla, topladığı təcrübəsi, güclü idarəetmə bacarığı, dərin düşüncəsi, hərtərəfli biliyi, düşmənə qarşı aparılan II Qarabağ müharibəsində əsgər və zabitlərimizə düzgün, dəqiq yönümdə komandanlıq etməklə düşmən üzərində qələbə çalma yollarının sirlərini bütün incəlikləri ilə onlara öyrətməklə döyüşdü.

Prezident, Azərbaycan Ordusunun Ali Baş Komandanı, cənab İlham Əliyevin müasir elmi, mədəni və diplomatik tələblərə yetərincə cavab verən nitqinin, düzgün, dəqiq istiqamətdə komandanlığının nəticəsində qəhrəman döyüşçülərimiz düşmənə 44 gün müddətində qələbə çalaraq əsarətdə olan ərazimizi azad etdilər. Bununla Prezident İlham Əliyev xalqın qəlbində əbədi şöhrət qazandı.

Azərbaycanda dincliyi təmin edən respublikamızın müstəqilliyinin bünövrəsini qoyan, onun ilk konstitusiyasını, parlamentini, icra orqanlarını yaradan, beynəlxalq münasibətlərin normal inkişafını gerçəkləşdirən, neft kontraktlarının bağlanmasını, ümumən ölkəmizin neftinin dünya bazarlarına çıxarılması layihəsini uğurla həyata keçirən, Azərbaycan Respublikasının iqtisadi gələcəyini müəyyənləşdirən, Ümummilli lider Heydər Əliyevin ailəsində böyüyüb boya-başa çatdığı, tərbiyə aldığı üçün böyük həyat universitetini bitirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlətçiliyimiz tarixində itirilmiş, azğın düşmən qüvvələri tərəfindən işğala məruz qalmış yerlərimizi geri almaqla milli ordumuzda böyük ruh yüksəkliyi yaratdığı, heç bir hədə-qorxudan çəkinmədiyi üçün Azərbaycan tarixində ərazimizi düşmən əsarətindən azad edib geri qaytarmağı həyata keçirən ilk rəhbərdir. O, xalqın sönmüş çırağını yenidən yandıran, ölmüş inamını, ümidlərini dirildən böyük sərkərdə, millətin igid, qeyrətli, qorxmaz, qəhrəman, xilaskar oğludur. İlham Əliyev Azərbaycan xalqının qəhrəmanı adına layiq tarixi şəxsiyyətdir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun müzəffər, cəsur əsgər və zabitlərimizin müharibəni 44 günə düşmənə sarsıdıcı zərbələr vurmaqla və böyük itkilər verməklə qələbə ilə başa çatdırması, düşməni ərazimizdən iti qovan kimi qovması, Ermənistan ordusu əsgərlərinin, zabitlərinin ərazimizdə qoyub qaçdıqları silahları, hərbi sursatları, tankları, raketləri ələ keçirməsi işğal olunmuş rayonlarımızın kənd və şəhərlərindən 3-nü (Kəlbəcəri, Ağdamı və Laçını) döyüşsüz, dinc yolla düşmən əsarətindən azad etməsi dünyanın hərbi tarixində birinci hadisədir. Bu hadisə həm də Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin vətənə bağlılığının, böyük humanistliyinin parlaq göstəricisidir. Azərbaycan tarixində heyrətləndirici uğurları İlham Əliyevin xalqın ən layiqli başçısı, rəhbəri, atası ümummilli lider Heydər Əliyevin vəsiyyətini şərəflə yerinə yetirən vəfalı övlad, sədaqətli davamçı, hərtərəfli, zəngin bilikli rəhbər, nitq mədəniyyətinə yetərincə yiyələnən gözəl natiq, güclü siyasətçi, diplomat, böyük vətənpərvər tarixi şəxsiyyət olduğunu sübut etdi.



***Yusif YUSİFOV,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının dosenti, ümumi dilçilik ixtisası üzrə baş elmi işçi (professor)***